**Güzəştli ipoteka kreditlərindən istifadə etmək hüququ olan şəxslər:**

YAŞI 35-DƏN ÇOX OLMAYAN GƏNC
AİLƏ ÜZVLƏRİ

1. Şəhidin övladları
2. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanının övladları
3. Azərbaycanın Milli Qəhrəmanının övladları
4. Məcburi köçkün və ya ona bərabər tutulan şəxs
5. Ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs
6. Ən azı 3 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs
7. Fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs
8. İdman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idmanxadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışlarınmükafatçısı (I, II və ya III yer)
9. Ən az 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs

YAŞINDAN VƏ AİLƏ VƏZİYYƏTİNDƏN ASILI
OLMAYARAQ DİGƏR ŞƏXSLƏR

1. Şəhid ailəsinin üzvü (əri/arvadı)
2. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı)
3. Azərbaycanın Milli Qəhrəmanı (özü, əri/arvadı)
4. Elmlər doktoru elmi dərəcəsi olan şəxs
5. Ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs
6. Ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları ("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyatavə ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla)
7. Ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs
8. Ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər (müraciətləri qəbul edilənelmiişçilərin çalışdığı elmi müəssisə və təşkilatların siyahısı)
9. Ən azı 15 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs
10. Ən az 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs

***Qeyd:*** *Güzəştli ipoteka kreditindən istifadə etmək hüququ olan ailə və ya şəxs buhüquqdan yalnız bir dəfə istifadə edə bilər.*

Ətraflı məlumat üçün: mida.gov.az